# Gülçin Quluzadənin yubileyi keçirildi.



Aprelin 10-da Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetində Universitetin xarici dillər və onun tədrisi metodikası kafedrasının müdiri, professor Gülçin Quluzadənin yubileyinə həsr olunmuş tədbir keçirildi. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, professor Rahim Hüseynov Gülçin Quluzadənin az yaşında böyük həyat yolu keçdiyini, universitetin professor müəllim heyəti və tələbələr arasında böyük hörmət qazandığını bildirdi.

Universitetdə işlədiyi iyirmi ilə yaxın bir müddətdə bir neçə dərs vəsaiti, metodiki vəsait hazırladığını, onlarla elmi konfranslarda məruzə və tezislərlə çıxış etdiyini, xarici ölkə və respublika mətbuatında çoxlu məqalələrinin dərc olunduğunu bildirdi və professor Gülçin Quluzadəyə bundan sonrakı fəaliyyətində də möhkəm cansağlığı və yeni-yeni uğurlar arzuladı.

Tədbirdə çıxış edənlər professor Gülçin Quluzadənin böyük elmi və pedaqoji fəaliyyəti, əsl azərbaycanlıya xas olan sadəliyi, səmimi insani keyfiyyətləri haqqında maraqla danışdılar.

Rektor Gülçin Quluzadəyə universitetin mükafatını və xatirə hədiyyəsini təqdim etdi.

